# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**"Naxçıvan Muxtar Respublikasında bəzi fəaliyyət növlərinə lisenziya verən icra hakimiyyəti orqanlarının siyahısı"nın təsdiq edilməsi haqqında**

"Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikasında bəzi fəaliyyət növlərinə lisenziya verən icra hakimiyyəti orqanlarının siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. "Naxçıvan Muxtar Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verən icra hakimiyyəti orqanlarının siyahısının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 oktyabr tarixli 90 nömrəli qərarı ləğv edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri:** **Ə.Baxşıyev**

«11» yanvar 2016-cı il

№ 1

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il "11" yanvar tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmişdir

## Naxçıvan Muxtar Respublikasında bəzi fəaliyyət növlərinə lisenziya verən icra hakimiyyəti orqanlarının

## S İ Y A H I S I

| S/№ | Fəaliyyət növünün adı | Lisenziya verən icra hakimiyyəti orqanı |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | **Özəl tibb fəaliyyəti** | Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi |
| 2. | **Əczaçılıq fəaliyyəti** | Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi |
| 3. | **Rabitə xidmətləri:** | Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi |
| 3.1. | telefon (məftilli) | |
| 3.2. | sellülar (mobil) rabitə xidmətləri (texnoloji standartın adı göstərilməklə) | |
| 3.3. | radiotrank və simsiz telefon | |
| 3.4. | İP-telefoniya (internet telefoniya) | |
| 3.5. | məlumatların ötürülməsi (data) | |
| 3.6. | sürətli poçt xidməti | |
| 4. | **Təhsil fəaliyyəti:** | Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi |
| 4.1. | məktəbəqədər təhsil müəssisələri | |
| 4.2. | ümumtəhsil müəssisələri (liseylər və gimnaziyalar daxil olmaqla) | |
| 4.3. | ilk peşə - ixtisas təhsili müəssisələri (peşə məktəbləri və peşə liseyləri) | |
| 4.4. | orta ixtisas təhsili müəssisələri | |
| 4.5. | ali təhsil müəssisələri | Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti |
| 4.6. | əlavə təhsil müəssisələri | |
| 4.7. | dini orta ixtisas təhsil müəssisələri | Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsi |
| 4.8. | ali dini təhsil müəssisələri | Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti |
| 5. | **Müxtəlif növ möhürlərin və ştampların hazırlanması** | Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi |

| 1 | 2 | 3 |
|---|---|---|
| 6. | **Teleradio yayımı (televiziya və radio yayımı, əlavə informasiya yayımı, kabel şəbəkəsi yayımı, peyk vasitəsilə yayım, xarici teleradio kanallarının peyk vasitəsilə teleradio yayımının kodlaşdırılmış qurğu-larla həyata keçirilməsini təmin edən fəaliyyət)** | Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası |
| 7. | **Yabanı dərman bitkiləri xammalının yığılması** | Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 8. | **Prekursorların istehsalı, idxalı, ixracı və tranzit nəql edilməsi** | Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi |
| 9. | **Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması** | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi |
| 10. | **Maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarı** | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi |
| 11. | **Dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması** | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi |
| 12. | **Liftlərin quraşdırılması və təmiri fəaliyyəti** | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi |
| 13. | **Attraksionların istismarı** | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi |
| 14. | **Qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri** | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi |
| 15. | **Təhlükə potensiallı obyektlərdə istismar olunan avadanlığın və texniki qurğuların diaqnostikası və digər texniki yoxlamaların keçirilməsi** | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi |
| 16. | **Yanğından mühafizə fəaliyyəti:** | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi |
| 16.1. | yanğınsöndürmə texnikası məhsulunun istehsalı və satışı, sınaqlarının keçirilməsi | |
| 16.2. | yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, texniki xidməti və təmiri | |
| 16.3. | yanğınsöndürmə ləvazimatının, ilkin yanğınsöndürmə vasitələrinin təmiri və onlara xidmət, yanğınsöndürmə vasitələrinin keyfiyyətinin bərpası | |
| 17. | **Tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işləri** | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi |

| 1 | 2 | 3 |
|---|---|---|
| 18. | **Tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi** | Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 19. | **Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri** | Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi |
| 20. | **Özəl baytarlıq təbabəti fəaliyyəti** | Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti |
| 21. | **Baytarlıq preparatlarının:** | Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti |
| 21.1. | istehsalı | |
| 21.2. | satışı | |
| 22. | **Biometrik texnologiyaların yaradılması və həmin texnologiyalara xidmət göstərilməsi** | Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi |